# *Gürcü politoloq:* "Vaşinqton görüşü Cənubi Qafqaz və dünya üçün tarixi dönüş nöqtəsidir"

"Avqustun 8-də Vaşinqtonda keçirilən görüş və bu görüşdə Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinə aparan Birgə Bəyannamənin imzalanması Cənubi Qafqaz ölkələri üçün mühüm əhəmiyyət kəsb edir".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstanın Beynəlxalq Münasibətlər Akademiyasının rəhbəri, Gürcüstan-Azərbaycan Münasibətlərinin İnkişafı Fondunun baş direktoru Simon Kopadze söyləyib.



Onun sözlərinə görə, Ermənistan ilə Azərbaycan arasında Birgə Bəyannamənin imzalanması XXI əsrin çox mühüm hadisəsidir.

Politoloq deyib: "Müharibəyə başlamaq üçün bir tərəf kifayətdir, amma sülhə nail olmaq üçün iki tərəf lazımdır. Bu gün müharibəni başlayanla təcavüzə məruz qalan, zamanın ən çətin sınağından keçərək müharibəni udan tərəfin eyni masada tərəf kimi oturması tarixdə təsadüf edilən nadir hadisələrdəndir. Vaşinqton görüşündə diqqətçəkən ən unikal məsələlərdən biri də Azərbaycan Prezidenti İlham Əliyevin dahiyanə hərəkəti oldu. Prezident İlham Əliyev qalib olmasına baxmayaraq, Ermənistanın baş naziri Nikol Paşinyan ilə qalib kimi deyil, tərəfdaş kimi davrandı. Burada İlham Əliyevin alicənablığı hiss olunurdu. O, Paşinyana təkcə tərəfdaşlıq əlini uzatmadı, həm də düşməninə əl uzatdı. Bu, çox qiymətli bir addımdır".

Aprelin əvvəlində Bakıda ADA Universitetində beynəlxalq konfransda iştirakını xatırladan Kopadze deyib: "Konfransda mən çox mühüm sözlər eşitdim. Orada deyirdilər ki, İlham Əliyev heç kimin bacarmadığını etdi. O, 10 milyonluq xalqı bir yumruq kimi birləşdirdi. Millətin başında dayandı və qələbəyə apardı. İşğal altında olan ərazilərini azad etdi və həmin bölgələr indi sürətlə inkişaf etdirilir. Mən öz gözlərimlə gördüm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin yeddi rayon, eləcə də Xankəndi və Şuşa iki ilə necə inkişaf etdirilib. Təsəvvür edin, Xankəndi hələ bir il əvvəl xarabalıq idi. Amma iki ildən sonra orada böyük infrastruktur quruldu və Xankəndidə beynəlxalq sammit keçirildi. Bu, çox böyük, misli görünməmiş bir işdir. Bu işlər hər birimiz üçün təkcə maliyyə baxımından deyil, həm də siyasi baxımdan böyük əhəmiyyət daşıyır".

Politoloq hesab edir ki, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalandıqdan sonra region çox böyük inkişaf yoluna qədəm qoyacaq. Təkcə region üçün deyil, Yaxın Şərq və Mərkəzi Asiya üçün, ümumilikdə isə bütün dünya üçün çox böyük perspektivlər açılacaq. Cənubi Qafqazla birlikdə Yaxın Şərq və Mərkəzi Asiya da inkişaf edəcək. Cənubi Qafqaz, Qazaxıstan, Çin və digər dövlətlər arasında birbaşa əlaqə yaranacaq. Çin məhsulları Qazaxıstan vasitəsilə, Orta dəhlizlə və artıq Zəngəzur dəhlizi ilə daşınacaq. Bu, çox qısa bir yoldur.

Simon Kopadze deyir ki, Zəngəzur dəhlizinin (TRIPP) Orta dəhlizə rəqib olacağı barədə fikirlər də yanlışdır. Çünki hər iki dəhliz bir-birinə rəqib olmayacaq, əksinə, qlobal inkişafa səbəb olacaq. Regionda kommunikasiyalar nə qədər çox olsa, bir o qədər inkişaf geniş vüsət alacaq.

Azərbaycan.- 2025.- 15 avqust (№170).- S.8.